# *Sergey BURLOV:* "Xəzər dənizi güc və enerji verir"

Belə marafona ilk dəfədir qatılıram və hesab edirəm ki, belə hadisə həyatımızda hər gün baş vermir. Emosiyalarım aşıb-daşır. Belə təşəbbüsə görə Heydər Əliyev Fonduna çox minnətdaram.

Bu sözləri "Bakı Marafonu - 2016"da iştirak edən Rusiyanın Azərbaycandakı səfirliyinin əməkdaşı Sergey Burlov jurnalistlərə müsahibəsində deyib.



O təəssüratlarını belə bölüşüb: "Qəbuldan, yarışların təşkilatçılıq səviyyəsindən çox razı qaldım. Özü də sahilində starta başladığımız Xəzər dənizinin özü elə gözəldir ki... Bütün bunlar güc və enerji verir".